# Böyük Qayıdışın astanasında

**_Prezident İlham Əliyev cari ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpasının daim diqqət mərkəzində saxlanıldığını, indiyədək mövcud sahədə mühüm uğurlar əldə edildiyini diqqətə çatdıraraq, qarşıdakı dövrdə müvafiq struktur rəhbərlərinə bu istiqamətdə görüləcək işlərlə bağlı öz tapşırıqlarını da verib. Dövlətimizin başçısı hazırda Ağdam və Füzuli şəhərlərinin bərpasının baş planlar əsasında həyata keçirildiyini, Şuşa, Cəbrayıl, Kəlbəcər, Zəngilan, Qubadlı şəhərlərinin, Hadrut və Suqovuşan qəsəbələrinin də Baş planlarının hazırlanmasının, həmçinin Qarabağ və Şərqi Zəngəzura aid olan investisiya proqramına əlavələr edilməsinin zəruriliyini diqqətə çatdırıb._**

Qeyd edilənlərlə yanaşı, Qarabağ və Şərqi Zəngəzurda artıq bir neçə su-elektrik stansiyası inşa edilərək, işə salınıb. Günəş, eləcə də külək stansiyalarının yaradılması ilə bağlı konkret planların da ardıcıllıqla reallaşdırılması diqqət mərkəzində saxlanılıb. Məsələn, bp şirkəti ilə imzalanmış icra müqaviləsinə əsasən, Cəbrayıl rayonunda 240 meqavat gücündə günəş-elektrik stansiyasının tikilməsi qərara alınıb.

Bütün bunlar deməyə əsas verir ki, cari il Azərbaycan tarixinə Böyük Qayıdışın başlanğıc ili kimi daxil olacaq. Prezident İlham Əliyevin dediyi kimi, ilk





Ölkə rəhbəri, eyni zamanda, cari ilin birinci rübündə işğaldan azad olunan ərazilərin yenidənqurma prosesinin intensiv şəkildə davam etdirildiyini, 2021-2022-ci ildə bu iş üçün 4,4 milyard manat vəsait ayrılmasının nəzərdə tutulduğunu və bu vəsaitin yarıdan çoxunun xərcləndiyini xatırladıb. Azərbaycan Prezidenti daha sonra deyib: “Baş planlar təsdiq olunandan sonra biz ancaq praktiki işlərlə məşğul olacağıq. Mən, ilk növbədə, yaşayış binalarının inşasını nəzərdə tuturam. Çünki digər infrastrukturla bağlı layihələr icra edilir. Minalardan təmizlənmə prosesini sürətləndirmək üçün bu il dövlət büdcəsində 100 milyon manata yaxın vəsait nəzərdə tutulub və bu, bizim üçün prioritet məsələdir. Çünki bu məsələ həll olunmadan biz vətəndaşları o bölgələrə yerləşdirə bilmərik. Ancaq tam əmin olandan sonra ki, o ərazilər minalardan təmizlənib, biz vətəndaşları o ərazilərə yerləşdirə bilərik”.

Yeri gəlmişkən, bərpa layihələrinin gedişində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ərazilərin minalardan təmizlənməsinə xüsusi diqqətlə yanaşılıb. Bunun üçün təkcə cari ilin mart ayında 203 hektar ərazi mina və partlamamış döyüş sursatlarından tam təmizlənib. Ümumiyyətlə, bugünədək yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərini əhatə edən 14 min 600 hektaradək ərazidə bu proses başa çatdırılıb.

Onu da qeyd edək ki, dövlətimizin başçısı nitqində qısa müddətdə Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verildiyini, Zəngilan və Laçın rayonlarında da aeroportların tikintisinə başlanıldığını bildirib, həmçinin vurğulayıb ki, ötən bir ildə yol infrastrukturunun qurulmasına böyük diqqət yetirilib, bu istiqamətdə genişhəcmli layihələr gerçəkləşdirilib. Göygöl-Toğanalı-Kəlbəcər yolunda olacaq 11,6 kilometrlik tunelin tikintisi çərçivəsində 25 faiz işlər artıq yerinə yetirilib. Bu tunelin inşasının başa çatdırılması 2024-cü ilin sonunadək nəzərdə tutulub. Bundan əlavə, 6-4 hərəkət zolaqlı Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi çərçivəsində işlərin 70 faizi yerinə yetirilib. Yolun tikintisinin 2023-cü ilin sonunadək bitəcəyi planlaşdırılıb.

Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 16 yol layihəsi yerinə yetirilir və rayondaxili yolların tikintisi apalır, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan ərazilərində 780 kilometr uzunluğunda daxili yolların inşası sürətlə davam etdirilir. Yol tikintisi ilə bərabər, dəmiryolu xətlərinin salınması da uğurla reallaşdırılır. Bərdə-Ağdam (47,1 kilometr) və Horadiz-Ağbənd dəmir yolu xətlərinin (110,4 kilometr) tikintisi sürətlə həyata keçirilir.

məskunlaşma Zəngilanın “ağıllı kənd”ində reallaşacaq.

Xatırladaq ki, İkinci Ağalı kəndi ərazisində də inşa edilən bu kənddə 200 fərdi ev, ikimərtəbəli 4 qeyri-yaşayış binası, 360 şagird üçün nəzərdə tutulan məktəb və 60 yerlik uşaq bağçasının tikintisi demək olar ki, başa çatıb. Kənddə içməli su təminatı həll edilib, park meydanı inşa olunub, burada fəvvarələr, piyada və velosiped yolları qurulub. “Ağıllı kənd”də kənd təsərrüfatı fəaliyyətinin bərpası və inkişafı üçün müvafiq şəraitin yaradılması məqsədilə layihə çərçivəsində ictimai fermanın qurulması da nəzərdə tutulub.

“Ağıllı kənd”də “Dost Aqropark” fəaliyyət göstərəcək. Ötən il Prezident layihənin təməlini qoyarkən məlumat verildi ki, türk və azərbaycanlı sərmayədarlar tərəfindən həyata keçiriləcək bu layihə üç mərhələdə icra olunur. Layihənin birinci mərhələsində inzibati binalar, qapalı və yarıaçıq heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, xidməti heyətin qalması üçün binalar tikiləcək. Kompleksdəki otlaq sahələrində 4 min baş cins qaramalın yetişdirilməsi, əkinçilik məhsulları istehsalı və digər fəaliyyətlər də həyata keçiriləcək. Bütün bunlar Azərbaycanın və Türkiyənin qida təhlükəsizliyinə töhfə verəcək, bölgənin əkinçilik və heyvandarlıq məhsullarının beynəlxalq bazarlara çıxarılmasına imkan yaradacaq.

Yeri gəlmişkən, Qarabağ iqtisadi rayonunda bərpa-quruculuq işləri başlanandan bugünədək 178 müəssisə yaradılıb. Şərqi Zəngəzur iqtisadi rayonunda isə 51 müəssisə fəaliyyətə başlayıb.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda alternativ enerji mənbələrinin potensialından geniş istifadə edilməsi də nəzərdə tutulub. Prezident İlham Əliyev ötən il mayın 3-də “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində “yaşıl enerji” zonasının yaradılması ilə bağlı tədbirlər haqqında” sərəncam imzalamaqla ölkəmizdə “yaşıl enerji” zonasının qurulmasına mühüm önəm verildiyini diqqətə çatdırıb.

“Yaşıl enerji” zonası layihəsinin Qarabağ və Şərqi Zəngəzurda reallaşdırılmasını potensial imkanlarla bərabər, digər amillər də şərtləndirir. Belə ki, bu gün dünyanın ən qabaqcıl texnologiyaları alternativ enerjidən istifadənin stimullaşdırılmasına və ekoloji tarazlığın təmin edilməsinə yönəldildiyindən, adları çəkilən iqtisadi rayonların bərpa-yenidənqurma məsələlərində də bu istiqamət əsas götürülür.

Qarabağ və Şərqi Zəngəzurda artıq bir neçə su-elektrik stansiyası inşa edilərək, işə salınıb. Günəş, eləcə də külək stansiyalarının yaradılması ilə bağlı konkret planların da ardıcıllıqla həyata keçirilməsi diqqət mərkəzində saxlanılıb. Məsələn, bp şirkəti ilə imzalanmış icra müqaviləsinə əsasən, Cəbrayıl rayonunda 240 meqavat gücündə günəş-elektrik stansiyasının tikilməsi qərara alınıb.

İşğaldan azad olunan ərazilərdə meliorasiya və su təsərrüfatı kompleksinin bərpası və inkişafı istiqamətində görüləcək işlər də diqqət çəkir. Yuxarı Qarabağ iqtisadi rayonunda ən çox suvarılan torpaqlar Ağdamdan sonra Füzuli rayonundadır. Burada 26,4 min hektar sahənin suvarma suyu ilə təmin edilməsi üçün meliorasiya və su təsərrüfatı obyektlərinin təmirbərpası nəzərdə tutulur. Bura Köndələnçay üzərində 3 su anbarının və Quruçay hidroqovşağının, suvarma və paylayıcı kanalların, nasos stansiyalarının təmir-bərpası, həmçinin subartezian quyularının bərpası daxildir. “Aşağı Köndələn” anbarının sututumu 9,5 milyon kubmetr, “Köndələnçay-1” anbarının 2,1, “Köndələnçay-2” anbarının isə 3,9 milyon kubmetrdir. “Quruçay” hidroqovşağı isə saniyədə 15 kubmetr sugötürmə qabiliyyətinə malikdir.

İşğaldan azad olunan ərazilərimizdə turizm infrastrukturunun yaradılması, oradakı mədəni tarixi abidələrin tanıdılması ilə bağlı layihələrin icrası da diqqətdə saxlanılır. Həmçinin turizm potensialının öyrənilməsi, qiymətləndirilməsi və turizm inkişaf konsepsiyalarının hazırlanmasına da xüsusi önəm verilir.

Qarabağ regionunda turizm və rekreasiya zonalarının yaradılması istiqamətində Xocavəndin Hadrut qəsəbəsi, Tuğ, Ağbulaq, Şəkər yaşayış məntəqələri, Kəlbəcərin İstisu qəsəbəsi, Şuşanın Daşaltı, Zülfüqarlı, Lex və Qamışlı, Qubadlının Bərgüşad və Zəngilanın Qaragöl kəndlərinin müəyyən əraziləri turizm və rekreasiya zonaları üçün müəyyənləşdirilib. Bu ərazilərə dair ilkin təqdimat sənədi hazırlanıb və aidiyyəti dövlət qurumlarına ərazilərin inkişaf planlarında nəzərə alınması üçün təqdim olunub. Tərtər rayonunun Suqovuşan qəsəbəsinin region üzrə rekreasiya imkanlarının artırılması və aktiv turizm fəaliyyətlərinin yaradılması istiqamətində turizmin inkişafı ilə bağlı konseptual inkişaf planı hazırlanıb.

Prezident İlham Əliyevin “Böyük qayıdış” strategiyasında başlıca prioritetlərindən biri də Qarabağ və Şərqi Zəngəzurda sosial şəraitin ən yüksək səviyyədə yaradılmasıdır. Məqsəd keçmiş məcburi köçkünlərin bu ərazilərdə yaşayışının mütərəqqi beynəlxalq təcrübəyə və innovativ yanaşmaya əsaslanan çevik mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq prinsiplərinin reallaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilməsidir.

Xatırladaq ki, cari ilin sonuna qədər Şuşa şəhərində Qarabağ regionunda ilk “DOST” mərkəzinin fəaliyyətə başlayacağı nəzərdə tutulur. Hazırda bununla əlaqədar layihə işləri gedir. Eyni zamanda, Cəbrayılda regional “DOST” mərkəzinin, Zəngilanın Ağalı kəndində “Ağıllı DOST”, “SMART DOST” prinsipi ilə layihənin reallaşdırılacağı nəzərdə tutulur. Kəlbəcər, Laçın, Ağdam, Hadrut, Zəngilan, Füzuli və Qubadlıda da “DOST” filiallarının yaradılması, “ağıllı” kəndlərimizdə “SMART DOST” məntəqələrinin quraşdırılması planlaşdırılıb.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***